# BƏKİR ÇOBANZADƏNİN BƏDİİ NƏSRİ VƏ PUBLİSİSTİKASI



***Mahmud ALLAHMANLI,***
***filologiya elmləri doktoru, professor***

***(Əvvəli ötən saylarımızda)***

Hər bir obrazın hekayədə bir funksiyası, vəzifəsi var. Bir obrazın digərindən ən əsas fərqləri bu obrazı xarakterə çevirir. Xarakter bir qədər geniş anlamdır. O, əsərdə müəllifin fikirlərini, oxucuya çatdırmaq istədiklərini əsərin məzmunu, ideyası, süjet və kompozisiyasının köməyi ilə bütünləşdirir. Ancaq hər bir bədii əsərin, o cümlədən hekayənin mərkəzində ideyanı reallaşdırmaq üçün bir və ya bir neçə obrazın olması labüddür. Əslində obrazlar həyata, ideala münasibətdə, aid olduğu təbəqəyə, yaşam tərzinə, düşüncəsinə görə bir-birindən fərqlənir" (10, 19). Bu kontekstdə B.Çobanzadənin hekayələri kifayət qədər zəngin faktura ilə nəzər-diqqəti cəlb edir. Ümumiyyətlə, XX əsrin ilk onilliklərində hekayənin bir forma olaraq işləkliyi və ədəbi-mədəni mühitin daha çox diqqət önünə gətirməsinin səbəbi aydınlaşır. Çünki kifayət qədər üslub zənginliyi, formanın özünün ehtiva etdiyi lakoniklik, təsir və əhatələmə xüsusiyyəti janra olan marağı daha da artırmışdır. B.Çobanzadənin də hekayələri bu baxımdan yaradıcı düşüncəsini, müəllif qayəsini ifadə etmək baxımından diqqətçəkicidir. XIX əsrin sonu XX əsrin əvvəllərində Ə.Haqverdiyevin, S.S.Axundovun, N.Nərimanovun, A.Şaiqin, Y.V.Çəmənzəminlinin, R.Əfəndiyevin, S.M.Qənizadənin, S.Hüseynin, Ü.Hacıbəyovun hekayəyə bir forma olaraq müraciətləri məhz müəllif qayəsini ifadə etmək imkanlarından qaynaqlanır. B.Çobanzadənin 1917-1920-ci illər arasında yazdığı hekayələr də tipik şəraitdə tipik obrazlar yaratmaq istəyinə köklənmişdir. Məsələn, "On dörd yaşında" hekayəsində qaldırılan problemlər tatarların tarixi taleyi və yaşadığı real vəziyyəti əks etdirmə məqsədinə bağlanır. "Biz tatarlar çox sürətlə doğulur, böyüyür, oynayır, gülür, sonra da yıxılıb ölürük. At üstündə, ayğırların belində qoşub durduğumuz bir taleyimiz var. Toz qaldırıb, göz qamaşdırıb ortaya çıxır, geri qayıdan zaman bir ucqar, tənha yerdə atımızdan yıxılıb səssiz, iniltisiz, hıçqırmadan, ağlamadan ölür, unuduluruq. Qoy hər xalq öz dilədiyi kimi yaşasın, biz həyatın bu şəklini, ölümün bu yolunu seçirik.

Bir tatar uşağı səkkiz yaşında at minməyi, on yaşında səkərək qaytarma oynamağı, on üç yaşında fəttan gözlərə vurulub sevdalanmağı bacarmırsa, iyirmi beş-otuz yaşında balaca uşaqlarını qoyub təmiz al qanlar içində, yaxud da həyatın boğucu, öskürdücü əllərində daşsız, bəlgəsiz bir məzara necə düşəcək"? (9, 180). Göründüyü kimi, burada xalqın yaddaşında, düşüncəsində qəlibləşmiş tatar obrazının bir bütöv olaraq canlandırılması nəzər-diqqəti cəlb edir. Tarixən böyük mədəniyyətə, möhtəşəm keçmişə malik olan bir xalqın qəhrəmanlıq və həyat təsəvvürlərini, yaşam anlayışlarını, mücadiləsini bütöv ortaya qoyan bu mətn həm də dəyərlərin qoruyuculuğu və ona sədaqət göstərilməsi baxımından əvəzsizdir. Bir tatar övladının dünyaya gəlişindən dünyadan gedişinə qədər olan təfsilatı əhatələmək gücü ilə səciyyələnən bu epizod həm də bir mədəniyyət, yaşam kodu olaraq diqqəti cəlb edir və eyni zamanda hər bir xalqın həyat təsəvvürləri anlamında tatar özünəməxsusluğunu, at belində bir ömür yaşamasını fəxr və fəxarət olaraq vurğulaması tarix, və mövcudluq anlamında bütövü ortaya qoyur.

Qarasubazar, Uluözən timsalında verilən informasiyalar, etnik dəyərlərin qorunuşu, qonaqpərvərlik, böyüyə hörmət, kimsəsizə əl tutmaq, ailə münasibətləri və s. hekayə boyu bir bütöv olaraq əks etdirilmə məqsədi daşıyır. "Bir şeyləri də çox yaxşıdır: köydən bir az uzaqda Carcur deyilən bir şəlalə var. Biz tatarlarda gözəl, yaxşı şeylərin adı həmişə belə yarı-yamalaqdır. Bizim qonşunun qızı Qurd Totay da ağappaq, yosma, gözəl, dilbər bir qızdı. Carcunun ətrafı uzun, ağ ipəklə qapanmış kimi qayın ağacları ilə süslənmiş, qonur, sarı, yaşıl yosunlarla örtülmüş bir çökək, yanında da saysız sellərin ağırlığı və dişləri arasında gəmirilən şırım-şırım olan qayaları var" (7, 181). B.Çobanzadə hekayələri təfsilata varma, obrazlaşdırma və həyat hadisələrinin özünəməxsus ifadə formalarını ehtiva etmək baxımından əvəzsizdir. Burada müəllif qayəsi hansısa bir epizodik məqamı, həyat hadisəsini mövzuya çevirməkdən çox uzaq görünür. Əsas olan sənətkarın qayəsini, düşüncəsində özünə yer alan məsələlərin etnosun mənəvi dünyasını ifadəyə köklənməsidir. Bu səbəbdən də ədibin hər bir hekayəsi problematikası ilə krım-tatarların həyatını, məişətinin ən köklü və gərəkli məsələlərini ifadəyə hesablanmışdır. Avtobioqrafik səciyyəli bu hekayə yüksək sənət meyarları ilə nəzər-diqqəti cəlb etməklə, həm də müəllifin yaradıcı imkanlarını ortaya qoymaq baxımından tipikdir. Hekayənin təhkiyə tipi, ortaya qoyduğu üslub özünəməxsusluğu, hadisələri faktlaşdırma manerası psixoloji situasiyaları əks etdirmə imkanları ilə səciyyəvilik qazanır. "Ara-sıra yatqın qaşlarını çatan Hacı ağa, əlində küllü dəmir maşa tutan anam gözümün qabağına gəldi. Mən indiki vəziyyətimdə maşadan deyil, gecə-gündüz itilənən qılınclardan, minlərcə Don kazakından belə qorxmazdım. Xoca söyləməsə də, mən bilirəm ki, Çingizlər də, Topal Teymurlar da bir cüt belə gözün xatiri üçün dünyanı alt-üst edərdilər. Mən onların övladıyam. Sevdiyim olsa, mən də edərəm.

Çox düşünmədən qalxdıq, yığmadığımız çiçək qoymadıq. Sonra Anyutaya bənövşə,süsən, gəlincik, müxtəlif ağ, qırmızı, mavi çiçəklərdən həmayil hördük" (7, 90). Bədii düşüncə elə qanadlı, həm də ecazkar bir həyat tablosudur ki, o özü ilə birgə yaradıcı düşüncələrini, oxucu duyğularını yerindən (məhvərindən çıxarmaqla) tərpətməklə çox-çox uzaqlara aparır. Bir növ onun ecazkar qanadları üstündə Qafdan-Qafa uçursan və harada olmağının fərqinə varmadan onu yaşamaq istəyirsən. Bir xatirə, yuxu kimi səni izləyir. B.Çobanzadənin "On dörd yaşımda" hekayəsi də bütün parametrlərdə bu düşüncəyə bağlanır və sonluq formulası ilə mahiyyəti ortaya qoyur.

Görkəmli ədəbiyyatşünas, dilçi, folklorşünas, şair, yazıçı, publisist B.Çobanzadənin fəaliyyəti hansısa bir qısa zaman müddətinə hesablanmış ömürlərdən deyildir. Onun düşüncəsində olanlar konseptual mahiyyəti, fundamental xarakteri ilə bütünlükdə etnosa, çoxluğun etnik-mənəvi dəyərlərinə örnək olacaq ömür yoludur. Ölümsüzlüyü, mücadiləsi və həyatdan istədikləri ancaq və ancaq keçmişdən gələcəyə yönəlikli olması və ideallara köklənməsi məramı, məqsədi ilə faktlaşır. Ədəbiyyatşünas T.Cavadov vurğulayır ki, "XX əsr Azərbaycan ədəbiyyatının bir çox unudulmayan şəxsiyyətləri var ki, zaman keçdikcə onların varlığı daha çox hiss olunur. Elə bil bu şəxsiyyətlər zamanın hər yeni mərhələsində bir daha doğulur və parlaq şəkildə üzə çıxırlar ki, istedad üçün zamanın heç bir əngəl olmadığını sübuta yetirsinlər. Belə bir həqiqəti ortaya qoysunlar ki, əsl şəxsiyyətlər həm də əsl istedadlardır" (13, 7). XX əsr Azərbaycan ədəbiyyatının əvəzsiz simalarından olan İsmayıl Şıxlı haqqında söylənmiş bu fikirlər həm də XX əsr Krım-tatar ədəbiyyatının (Krım-tatar olduğu qədər də Azərbaycan ədəbiyyatının) dahi şəxsiyyəti B.Çobanzadənin yaradıcılığı timsalında eyni təsəvvürü formalaşdırır. Görkəmli ədib bizə üzərindən illər, zamanlar ötdükcə şəxsiyyəti, istedadı, yazdıqları, qoyub getdikləri ilə örnək olaraq daha da yaxınlaşır. Xalqın üz tutub öyrənəcəyi düşücə sahibinə çevrilir, bir növ bizimlə birgə etdikləri, gördükləri ilə addımlayır. Poeziyası, nəsri, publisistikası, monoqrafik təhlilləri hansı duyğulara kökləndiyini və nələri çatdırmaq istədiyini aydınlaşdırmaq baxımından mənbə funksiyasını yerinə yetirir. Bütün bunlar, hər bir əsəri onun bizimlə bu gün danışan dilidir. Fəaliyyət üçün bir vətəndaş, şəxsiyyət örnəyidir. Təhlilini verdiyimiz şeirləri, monoqrafik araşdırmaları fundamental məzmunu ilə çox-çox zamanlar üçün qaynaq funksiyasını yerinə yetirəcəkdir, necə ki, indi yerinə yetirir. Hekayələri timsalında dediklərimiz də bu sıradadır. "On dörd yaşımda" hekayəsinin sonluğunda vurğulanan (həm də xüsusi vurğulanan) epizodda deyilir ki, " bu gün də bunca illər, uzun, dopdolu illər keçəndən sonra da bundan başqa sevinəcək, könlünü oxşayacaq xatirəm yoxdur. Bəlkə də heç zaman olmayacaq" (7, 191). Bu kövrək və bir qədər də niskil dolu ovqat B.Çobanzadənin yaradıcılığını bütün həyatı boyu izləmişdir. Düşünməli olursan ki, gəncliyin qaynar odu-alovu ilə qaynayıb coşan və böyük ideallar üstündə köklənən bir simada bu cür kövrək notlar haradan peyda olmuşdur. Bu nə duyğu, nə düşüncə olmuşdur ki, onun ruhunu, varlığını bütün həyatı boyu izləmiş və hətta əsərlərinə də çox-çox aydınlıqla öz möhürünü qoya bilmişdir. Çünki onun mücadiləsi, gördüyü gərəkli işlər bütün zamanlar üçün örnək ola biləcəyi halda "könlünü oxşayacaq xatirənin olmaması", "yaxşı ölüm" vurğulamaları və s. onu addımbaşı təqib etmişdir.



B.Çobanzadənin bədii təfəkkürü onun bədii-estetik düşüncəsini, etnokulturoloji sistemin təfəkkür intelleksiyasını əhatələmək gücündə mükəmməl bir müəyyənliklə özünü göstərə bilir. İstər poeziyası, istər nəsri, istərsə də publisistik yazıları hamısı məhz bədii-texnoloji komponentləri ilə yaradıcı təxəyyülünü, mövzuya çevirdiyi və çevirmək istədiyi məsələləri ortaya qoymaq baxımından ciddi bir faktura ilə səciyyələnir. Məlum olduğu kimi, "həyat konkret surətlərdə, mühüm keyfiyyətləri, maraqlı və faydalı cəhətləri göstəriləndə ədəbiyyatın idraki-tərbiyəvi əhəmiyyəti artır, insanda yeni hisslər, yeni düşüncə, yeni arzular oyanır. Çünki "insan üçün dünyada ən əziz olan şeylərin ən ümumisi və ən əzizi - həyatdır, əvvəlcə elə həyat ki, onu insan istəyir, sevir; sonra isə hər hansı bir həyat, çünki hər halda yaşamaq yaşamamaqdan yaxşıdır; canlı olan hər bir şey öz təbiəti etibarilə ölümündən, yoxluqdan qorxur və yaşamağı sevir. Buna görə də adama elə gəlir ki, "gözəl -həyatdır" (9, 23-24). B.Çobanzadənin bədii nəsrinin ehtiva etdikləri bir başa həyatı, gözəl olanı dərkə və onun nələrlə səciyyələnməsi məsələsinə hesablanmışdır. Çünki onun hər bir hekayəsi milli olanla bəşəri olanın, fərdlə ümuminin, rasionalla irrasional olanın sərhədləri çərçivəsində ciddi fakturanı müəyyənləşdirir. Tipoloji aspektdə paradiqmatik səviyyəni ortaya qoyduğu mətn tipi birbaşa gerçəkliyə, bəşər övladının qurmaq (və həm də dağıtmaq) mücadiləsinə, bu mücadilənin özünün gətirdiyi idealara bağlanır. B.Çobanzadə də bütün bunları tarix və tarixin dərsləri timsalında hansısa övqatın faktı olaraq müxtəlif səviyyələrdə bədii mətnə gətirir və mövzu olaraq öz iç dünyasında olanlarla narahatlıq hisslərinin tablosunu yaradır. "Xırmanda bir şair", "İki dərviş", "Qaradinməz Cəlil", "Bir neçə günahım" və s. əsərləri bunun tipik örnəyi kimi faktlaşmışdır.

"Uğurlu yollar" hekayəsi yaradıcı üslubu, psixoloji situasiyaların rəngarəngliyi və xronikal faktlaşma xüsusiyyəti ilə bir başqa məqamı diqqət önünə gətirir. "Bir yerdə durmayan su axıb gedir, bir yerdən axıb gedən su da geniş, əngin dənizlərə qovuşur, yox olur. Öz yurdunda oturmayanlar, ata ocağını buraxıb onun-bunun şəhərində, onun-bunun toyunda barınanlar çox keçmədən yox olurlar. Yaşadığı yerin arzularına uyğun şəkildə dəyişdirə bilməyənləri yer ya qaldırıb atır, ya da çürüdüb yeyir.

***(Davamı var)***